**A.Ə.Poladova**
***magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti***
**poladova99@gmail.com**

*Məqalə redaksiyaya daxil olub 15.04.2023*
*The article was received by editorial board on 15.04.2023*
*Статья принята к печати 15.04.2023*

# RƏQƏMSAL BİLİKLƏR VƏ PEŞƏ BACARIQLARININ İQTİSADİYYATDA ROLU

**Xülasə**

*Məqalədə rəqəmsal biliklər, habelə peşə bacarıqlarının mahiyyəti və həmçinin bunların cari tendensiyada ümumilikdə iqtisadiyyatda olan rolu öyrənilir. Rəqəmsal iqtisadiyyat inkişafı şəraiti əsasında cari vəziyyətdə cəmiyyət və şirkətlər istehsal fəallığının yüksəldilməsinə yardımçı olan informasiya-kommunikasiya texnologiyalarından (İKT) get-gedə daha da geniş bir formada yararlanmaqdadırlar. Rəqəmsal məhsul-xidmətlər sferasında olan müvafiq irəliləmə həyatın müxtəlif sferaları üzrə yeni texnologiyaların tətbiqinə kömək etməkdədir. Rəqəmsal texnologiyalar həm iş yerlərində və həm də, o cümlədən iqtisadiyyatın ənənəvi olaraq rəqəmsallaşma ilə heç bir əlaqəli olmayan sektorlarında belə artıq daha geniş şəkildə yayılmaqdadır.*

***Açar sözlər:** peşə bacarıqları; rəqəmsal biliklər; rəqəmsal iqtisadiyyat.*

## GİRİŞ

Sosial-iqtisadi inkişafı şərtləndirən qlobal və həmçinin yerli tendensiyalardan biri rəqəmsal texnologiyaların cəmiyyətin müxtəlif sferalarına tətbiq edilməsi və eyni zamanda həm də onların təsirlərinin artırılmasıdır. Belə şərtlər altında zəruri sayılan rəqəmsal mühitlə birbaşa qarşılıqlı əlaqəni təmin edəcək olan müvafiq bacarıqlar və səriştələr məhz günümüzün tələblərindəndir. Əlavə olaraq, peşə bacarıqlarının da sürətli formada inkişaf etdirilməsinin asılılığı məhz rəqəmsal biliklərin sözügedən sferaya olan tətbiqi prosesinə söykənir. Ümumilikdə İKT sferasında baş verən ən axırıncı innovasiyaların, həmçinin də innovativ tədbirlərin peşə təhsilində tətbiq olunması məhz peşə bacarıqlarının tərəqqisi prosesinin sürətini yüksəltməkdədir.

Yuxarıda yazdıqlarımız bizə onu söyləməyə imkan verir ki, peşə bacarıqlarının ortaya çıxması və təkmilləşdirilməsində rəqəmsal biliklərin tutduqları mövqe olduqca aktualdır və haqqında bəhs etdiyimiz sferanın detallı araşdırılması da günümüzdə spesifik bir önəm kəsb etməkdədir.

### Rəqəmsal biliklərin formalaşması

İldən ilə müxtəlif sferalar üzrə vətəndaşların yaşam rifahını artıran və yaşam şərtlərini sadələşdirən yeni İKT-lər ortaya çıxmaqdadır. Rəqəmsallaşma prosesinin səciyyələndirildiyi ən əhəmiyyətli konsepsiya isə rəqəmsal mədəniyyət konsepsiyasıdır. Rəqəmsal mədəniyyət kosepsiyası, onun təfsiri və həmçinin strukturunda olan müxtəlifliklərin olmasına baxmayaraq, çoxsaylı müəlliflər rəqəmsal mədəniyyətin və rəqəmsal iqtisadiyyatın məzmununa müəyyən bir rəqəmsal bilik səviyyəsini, onlardan istifadə bacarıqlarını, rəqəmsal dəyərləri, bu bilik, bacarıq və səriştələrin müəyyən bir sahədə tətbiqi üçün əlaqə və təcrübələri daxil edirlər. Rəqəmsal mədəniyyət rəqəmsal texnologiyaların digər bilik və fəaliyyət formaları ilə birləşməsi nəticəsində formalaşan çoxlu müxtəlif modelləri təmsil edir. Nəticədə rəqəmsal mədəniyyətin yeni modelləri yaradıla bilər ki, onların spesifikliyi elmin, mədəniyyətin, siyasətin və hüququn müxtəlif sahələrində İKT-nin istifadəsidir (Kuzmin, 2022).

Adlarını sadaladığımız müvafiq proseslərin sürətlərinin artırlması məqsədi ilə isə məhz cəmiyyətin müxtəlif qruplarının rəqəmsal biliklərə sahib olmaları məhz bazis şərtlərdən bir dənəsidir. Hazırda rəqəmsal texnologiyalar insanların həyatlarının, gördükləri işlərinin və

həmçinin kreativliklərinin ən əsas sahələrində effektiv və universal iştirakının təmin olunmasının tam mərkəzində dayanmaqdadır.

Rəqəmsal biliklər, yaxud "İT-səriştəsi" konsepsiyasının elmi ədəbiyyatda müxtəlif tərifləri vardır.

Misal üçün, Zimnyaya informasiya səriştəsini "informasiyanın qəbul edilməsi, həmin informasiyanın emal edilməsi, habelə onun buraxılması, həmçinin multimedia texnologiyaları əsasında işləmək səriştəsi, sonda isə internet resursları vasitəçiliyi əsasında işləmək bacarıqlarına sahib olmaq" şəklində tərif etmişdir (Зимняя, 2009).

Şarikov rəqəmsal səriştəni texnoloji-texniki, məzmun-kommunikativ, sosial-psixoloji kimi komponentlərə bölür (Шариков, 2016).

Soldatova rəqəmsal səriştəni insanın həyatın müxtəlif sahələrində infokommunikasiya texnologiyalarını tənqidi, effektiv və təhlükəsiz seçmək və tətbiq etmək bacarığı kimi müəyyən edir (Солдатова, 2015).

Bacarıqların qiymətləndirilməsi problemi elmi əsərlərdə kifayət qədər dolğun şəkildə işıqlandırılır. Bununla belə, fasiləsiz təhsil prosesində sistemli qiymətləndirmə və fərdi inkişaf trayektoriyalarının qurulması məsələsi həllini tapmamışdır.

Spivakın işində yumşaq bacarıqların inkişafına xüsusi diqqət yetirilir. O, "qərarların qəbulu və problemlərin həlli situasiyalarında bu tip təfəkkürün praktiki həyata keçirilməsi forması kimi sistemli təfəkkürün əsaslarını və sistemli yanaşmanın metodologiyasını zehnində kökləmək" zərurətinə diqqət yetirir (Спивак, 2021).

Ümumilikdə yumşaq bacarıqlar müəyyən bir şəxsin mövqeyindən, peşəkarlığından və ya təcrübə səviyyəsindən asılı olmayaraq inkişaf etdirilməlidir. Yumşaq bacarıqlar təşkilatlarda işçilər üçün aşağıdakı proseslərin sürətləndirə bilmələrinə kömək edir:

– həmkarlarla, müştərilərlə uzunmüddətli əməkdaşlıq əlaqələri qurmaq və inkişaf etdirmək;

– rəqəmsal iqtisadiyyatın müxtəlif sektorlarında çalışan insanlardan fikir, informasiya və biliklər əldə etmək;

– başqalarının və özünün qarşılıqlı faydası üçün öz nöqteyi-nəzərini təqdim etmək;

– istehsal problemlərini həll etmək və ümumi məqsədə nail olmaq üçün birlikdə işləmək;

– çətin vəziyyətlərdə qarşılıqlı dəstək göstərmək;

– təmas dairəsini genişləndirmək, yeni həllər, imkanlar haqqında öyrənmək və təcrübə mübadiləsi aparmaq;

– iş yerini və iş şəraitini yaxşılaşdırmaq.

Kojuxova çevik bacarıqların dəyişən rəqəmsal mühitə uyğunlaşdırılması məsələsinə diqqət yetirmişdir. Onun tədqiqatında bazarın gələcək ehtiyaclarına diqqət yetirməklə, kadrların peşəkar bacarıqların davamlı inkişafına töhfə verən təlim proqramlarına çıxışını təmin edən yeni təlim vektoru müəyyən edilmişdir (Кожухова, 2021).

Konstantinova özünün məqaləsində işçidən rəqəmsal bacarıqlara sahib olmağı tələb edən artıq qurulmuş bir mütəxəssisin peşə fəaliyyətinin dəyişən şərtlərinə diqqət yetirir, çünki, "rəqəmsal bacarıqların aşağı səviyyədə olması ölkə iqtisadiyyatının tərəqqisinə və onun rəqabətqabiliyyətlilik səviyyəsinə mane olmuş olacaq" (Константинова, 2020).

Beləliklə, rəqəmsal savadlılıq və ya rəqəmsal səriştə, konkret bilik və bacarıqlar kompleksi kimi hər hansı bir insanın təkcə peşəkar deyil, həm də ümumi mədəni səriştəsinin tərkib elementinə çevrilir. Bu baxımdan əhalinin rəqəmsal savadlılığının formalaşması və səviyyəsinin xüsusiyyətlərinin öyrənilməsi aktual vəzifə olaraq qalır.

Yuxarıda adı çəkilən müəlliflərin müvafiq tədqiqatları rəqəmsal savadlılığın formalaşması və səviyyəsi baxımından əhalinin heterogenliyi fonunda xüsusi əhəmiyyət kəsb etməkdədir. Bu, özlüyündə genişlənən rəqəmsal mühitdə müxtəlif ehtiyacları ödəmək, özünü reallaşdırmaq, təhlükəsizlik ehtiyaclarını təmin etmək və ümumilikdə, mövcud olan və ya olma təhlükəsi olan hər cür problemləri həll etmək üçün imkanların bərabərsizliyi deməkdir.

Bu fenomenin nisbi yeniliyinə baxmayaraq, rəqəmsal bilik geniş şəkildə araşdırılır. Bunun nəticəsində isə anlayışın, onun struktur elementlərinin çoxlu tərifləri günümüzdə formalaşmışdır. Bu fenomenin tədqiqatçıları onun savadlılığın digər növləri ilə - kompüter, media savadlılığı ilə

əlaqəsi, həmçinin bacarıq, bilik və bacarıqların şaxələnmiş strukturunun mövcudluğu kimi xüsusiyyətləri fərqləndirirlər (Ишмуратова, 2022).

Struktur elementlərin sayı və tərkibinə gəldikdə, rəqəmsal biliyi təşkil edən kifayət qədər geniş səlahiyyətlər və bilikləri qeyd etməyə imkan verən çoxlu fikirlər də mövcuddur. Rəqəmsal biliyin strukturuna alimlər xüsusi bilik və bacarıqlarla yanaşı, bu komponentlərdən istifadə motivasiyasını, bununla bağlı yaranan imkan və riskləri də daxil edirlər.

Şpaçenkonun fikrincə, rəqəmsal biliyin mühüm elementi təhlükəsizliyi təmin etmək bacarığı və bu, özü haqqında məlumatlara çıxışı qorumaq, məxfiliyi təmin etmək bacarığıdır (Шпаченко, 2021).

Beləliklə, buradakı anlayışları konspektləşdirərək rəqəmsal bilik və səriştə modelinə aşağıdakı əsas bacarıqları daxil edə bilərik:

1) fərdi kompüterdən istifadə etmək bacarığı;
2) proqram təminatından istifadə etmək bacarığı;
3) informasiya axtarmaq bacarığı;
4) videokonfrans proqramlarından istifadə etmək bacarığı;
5) peşəkar proqramlar və analitik sistemlərlə işləmək bacarığı.

**İqtisadiyyatda rəqəmsal bilik və bacarıqların tətbiqinin əhəmiyyəti**

Ümumdünya Şəbəkəsinin və mobil rabitənin tətbiqinin sürətli tərəqqisi iqtisadiyyatın müxtəlif sektorlarına, maliyyə xidmətlərinə, sosial sektorlara, təhsilə, səhiyyəyə, istehsalata, nəqliyyata və s.-yə əhəmiyyətli təsir göstərir.

Rəqəmsal transformasiya qlobal iqtisadi inkişafın əsas faktorudur. Əvvəllər rəqəmsallaşma analoq informasiyaların rəqəmsallığa ötürülməsi kimi başa düşülürdüsə, son zamanlarda rəqəmsallaşma məhz informasiya texnologiyalarının təsiri altında baş verən sosial və iqtisadi dəyişikliklər və biznes modellərinin rəqəmsal transformasiyası kimi başa düşülməyə başladı. McKinsey Qlobal İnstitutunun məlumatına görə, Çində 2025-ci ilə qədər internet texnologiyaları ÜDM artımının 22%-ə qədərini təşkil edəcək. ABŞ-da rəqəmsal texnologiyaların gözlənilən əlavə dəyərinin isə 2025-ci ilə qədər 1,6 trilyon dollardan 2,2 trilyon dollara qədər artacağı gözlənilir (Osipenko, 2021).

Hazırda mövcud çətin iqtisadi, siyasi, sosial və epidemioloji şəraitlə əlaqədar əhalinin rəqəmsal savadlılığının artırılması problemi xüsusilə aktuallaşır. O, yeni kompetensiyaları və əhalinin rəqəmsal texnologiyalar yaratmaq və istifadə etmək qabiliyyətini özündə birləşdirən fərqli məzmun əldə edir. Əhalinin rəqəmsal savadlılığı axtarış sistemlərindən istifadə etmək, lazımi informasiyaları tapmaq, müxtəlif rəqəmsal platformalarda mediadan istifadə etmək və informasiya ötürmək, alınan informasiyanın faydalılığını və zərərini müəyyən etmək kimi bu və digər bilik və bacarıqları özündə ehtiva edir (Кравченко, 2021).

Rəqəmsal savadlılığın ən əsas əhəmiyyətlərindən biri də axtarış motorlarından istifadə edə bilməkdir. Baxmayaraq ki, əsas açar söz axtarışı istənilən savadlı şəxs üçün əlçatandır, rəqəmsal bilikləri olan şəxslər hansı açar sözlə daha səmərəli və faydalı nəticələr əldə edəcəyi bilgilərinə sahib olur. Müasir axtarış xidmətləri dəqiqliyi artırmaq üçün məzmunun kalibrlənməsi və süzülməsi üçün daha mürəkkəb sistemlər təklif edir (şəkillər, xarici dillərdə açar sözlər üzrə axtarış), onlardan istifadə bəzən rəqəmsal mühitlə işləmək üçün çox əhəmiyyətli bacarıq tələb edir.

Başqa bir əhəmiyyəti elmi nəşrlərin verilənlər bazası ilə işləməkdir ki, bu da yalnız bu və ya digər nəticələri daraldan axtarış filtrlərinin fəaliyyəti haqqında ümumi biliklərlə həyata keçirilə bilər.

Ən ümumi formada rəqəmsal biliklərin geniş yayılması ilə bağlı rəqəmsal iqtisadiyyatda təhsil yönümlü faydalarının siyahısını aşağıdakı kimi ümumiləşdirmək olar:

- rəqəmsal savadlılıq ümumilikdə təhsil prosesini xeyli asanlaşdırır; belə ki, rəqəmsal biliklər İKT ilə işləməyə öyrəşmiş tələbələr üçün müxtəlif əlavə materiallardan istifadə etməyə imkan verir;
- rəqəmsal biliklər kommunikasiyanın tranzaksiya xərclərini azaldır, ideyaların ənənəvi kommunikasiya formalarından daha sürətli bir şəkildə mübadiləsinə şərait verir;

- rəqəmsal biliklərin artırılması müxtəlif (yerli, regional, beynəlxalq) elmi icmaları daha effektiv şəkildə yaratmağa və dəstəkləməyə imkan verir;

- rəqəmsal bilik artdıqca, elmi biliklərin populyarlaşması üçün yeni imkanlar açılır.

**Peşə bacarıqlarının formalaşmasına rəqəmsal bilik və bacarıqlarının təsiri istiqamətləri**

Gənclər çox vaxt almalı olduqları təhsil və indi inkişaf etdirməli olduqları bacarıqlarla bağlı seçimlərlə üzləşirlər. Dövrümüzün texnoloji və sosial-iqtisadi çətinlikləri, gələcək iş yeri haqqında dəqiq təsəvvür yaratmağa imkan verməyən texnologiya dəyişiklikləri səbəbindən bu seçim xüsusilə çətindir. Dünya İqtisadi Forumunun "İşlərin Gələcəyi" hesabatına əsasən, 2020-ci ildə ibtidai məktəbə daxil olan uşaqların üçdə ikisi hələ mövcud olmayan işlərdə özlərini tapa biləcəklər. Beləliklə, 5-15 ildən sonra tələb olunacaq bacarıqların siyahısını müəyyən etmək getdikcə çətinləşir (https://www3.weforum.org/docs/WEF_Future_of_Jobs_2020.pdf).

Rəqəmsal iqtisadiyyat dövründə peşə bacarıqlarından danışmazdan öncə yeni iqtisadi şəraiti formalaşdıran və yeni mədəni-tarixi konteksti müəyyən edən aşağıdakı prosesləri nəzərə almaq lazımdır:

– dinamik qloballaşma və genişmiqyaslı inteqrasiya, xətti deyil, eksponensial sürətlə inkişaf edir və dəyişikliklərin insan fəaliyyətinin demək olar ki, bütün sahələrinə sistemli təsirinin əvvəlcədən müəyyənləşdirilə bilinməsi mümkün hala çevrilir;

– Rəqəmsal Cəmiyyətin iqtisadiyyatının bütün sahələrində və sektorlarında istehsal və idarəetmə sistemlərinin transformasiyası və bunun nəticəsində iqtisadi ekosistemlərin əsaslı transformasiyası və yeni biznes modellərinin, peşələrinin və transformasiya texnologiyalarının yaranması baş verir;

– obyektlərin, proseslərin və hadisələrin təsvir formalarının sürətli şəkildə rəqəmsallaşdırılması prosesi gedir;

– biliklərin əldə edilməsi, habelə bacarıq və səriştələrin formalaşması və inkişafı proseslərinin diskretdən davamlıya çevrilməsi və insanın həyatı boyu müşayiəti tendensiyası ortaya çıxır;

– iqtisadiyyatın və sosial sahənin intellektuallaşdırılması sürətlənir;

– insan mühitinin "şəbəkələşdirilməsi" məsələsi ortaya çıxır;

– texnoloji yaxınlaşma, texnologiyaların birləşməsi və fiziki, rəqəmsal (virtual) və bioloji sferalar arasında sərhədlərin aradan qaldırılması baş verir.

Günümüzdə əmək bazarında "ixtisaslı kadr çatışmazlığı" ona gətirib çıxara bilər ki, aşağı ixtisaslı işlərin, adi və avtomatlaşdırıla bilən digər əməliyyatların əksəriyyəti süni intellekt, robotlar vasitəsilə yerinə yetirilsin. Oksford Universitetinin araşdırmasına görə, robotlaşdırma növbəti 25 il ərzində bütün iş və peşələrin 50%-nin yox olmasına səbəb ola bilər (Батракова, 2019).

Əslində yuxarıda yazılan "ixtisaslı kadr çatışmazlığı" məsələsi mən deyərdim ki, olduqca ziddiyyətli bir məsələdir. Ona görə ziddiyyətli sayıram ki, hazırda kifayət qədər kadr və hətta ixtisaslı kadr var əmək bazarında. Sadəcə hazırki prosesin adının ixtisaslı kadr çatışmazlığı qoyulmasının əsas səbəbi günümüzdə qloballaşmanın və iqtisadiyyatın rəqəmsallaşmasının sürətinə adaptasiya olmaqda heç də bütün kadrlar eyni rəqabətqabiliyyətliliyə malik deyillər. Buna görə də "ən səmərəli" kadrların arasında təhlil apardıqda belə nəticəyə gəlmək olur ki, bazarda kadr çatışmazlığı var və bütün işçilərin rəqəmsal peşələrə keçidini sürətləndirmək hesabına bu çatışmazlığı aradan qaldırmaq üçün isə ənənəvi peşələrin və insan əməyinə ehtiyac olmayan bütün fəaliyyət sahələrinin mərhələ-mərhələ bazardan sıxışdırılıb çıxarılması, yaxud da o sahələrdə rəqabətədavamlı əmək haqqının olmaması tendensiyaları tətbiq edilir.

Qeyd etməliyəm ki, peşə təhsilinin formalaşması üçün mütləq şəkildə universitetlərdə təhsil formatı nəzəri olmaqdan tam çıxmalı və təcrübi təhsil mühitinə keçid olunmalıdır. Əlavə olaraq peşə ixtisasları sayı yüksəldilməli, həmin ixtisaslara qəbul olunma qanun-qaydaları xeyli yumşaldılmalı, müvafiq ixtisaslara qəbul planları genişləndirilməli və cəmiyyətin arasında modern, yəni rəqəmsal peşələrlə bağlı əhali savadlılığını artırma yönümlü tez-tez təlimlər, maarifləndirəcək müxtəlif tədbirlər həyata keçirilməlidir.

## NƏTİCƏ

Nəticədə qeyd etməliyik ki, modern çağda peşə bacarıqlarını qazana bilməkdən ötrü rəqəmsal biliklərə o səbəbdən yiyələnməliyik ki, avtomatlaşdırılan və ya əmək bazarında tələbi azalan ənənəvi peşələr hesabına işsiz qalmayaq. Bu səbəbdən də məhz ənənəvi peşə yox, modern, yəni rəqəmsal fokuslu peşələrə istiqamətlənmək zərurəti formalaşır. Bu zərurətdən irəli gələrək isə rəqəmsal bilikləri və həmçinin bacarıqları da öyrənmək zəruri hal alır.

IV sənaye inqilabının problemləri rəqəmsal bacarıqları özündə cəmləşdirən universal səriştələrin tərəqqisinin zəruriliyini müəyyənləşdirir. Bu isə rəqəmsal iqtisadiyyatda uğuru müəyyən edən şəxs və təşkilat üçün unikal rəqabət üstünlüyü yarada bilməkdədir. Eyni zamanda, rəqəmsal səriştələrin yüksək səviyyədə inkişafı həyatın bütün sahələrində insanların fəaliyyətinin zəruri səmərəliliyini təmin edəcəkdir.

Nəzərə almaq lazımdır ki, peşə təhsili getdikcə davamlı bir prosesə çevrilir və onun rəqabət qabiliyyətinə nail olmaq üçün rəqəmsal bacarıqları formalaşdırmaq və inkişaf etdirmək mütləqdir. Buna təhsil müəssisələrində təkcə müvafiq maddi-texniki təminat deyil, həmçinin münasib mühitin yaradılması da kömək edəcəkdir. Rəqəmsal savadlılığın yüksək səviyyəsinə nail olmaq üçün müasir dövrdə müəllimlərin rəqəmsal transformasiyası da əhəmiyyət kəsb edir. Həmçinin, düşünürəm ki, ümumilikdə ali təhsil müəssisələrinin bir çoxunun ləğv olunub peşə məktəbləri ilə əvəz olunması daha məntiqəuyğun qərarlardan birisi ola bilər.

### *İstifadə edilmiş ədəbiyyat:*


**1.** “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı uzrə Milli Strategiya". Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il Fərmanı ilə təsdiq edilmişdir.

**2.** Eminov N.O. (2012), “İnnovasiya yönümlü iqtisadi inkişafın əsasında müasir sahibkarlığın inkişaf istiqamətləri”, Az.ETKTİ və Tİ-nun Elmi Əsərləri, 3 səh.

**3.** Eminov N.O. (2012a), “Milli innovasiya infrastrukturunun formalaşmasi və inkişafi problemləri”, AMEA-nın xəbərləri (İqtisadiyyat seriyası), 2, 27 səh.

**4.** Əliyev İ.İ. (2007), “Heydər Əliyev yolu Azərbaycan inkişafının yeni mərhələsində”, Bakı, Azərbaycan, 862 səh.

**5.** Kuzmin S.V. “Digital Competencies Of The Students And Young Professıonals”. Journal of the Belarusian State University. Philosophy and Psychology. 2022, (1), p.68-73.

**6.** Osipenko A.A. “Digital literacy of the population as a factor in the development of the digital economy”. Bulletin of the Perm University. Series: Mathematics. Mechanics. Informatics, 2021, (1(52)), p.75-80

**7.** Батракова Л.Г. “Труд и социально-трудовые отношения в цифровой экономике”. Ярославль, ЯФОУПВО «АТиСО», 2019, стр.28-31.

**8.** Зимняя И.А. “Ключевые компетенцииновая парадигма результата образования”. Эксперимент и инновации в школе, 2009, (2), стр.7-14.

**9.** Ишмуратова Д.Ф. “Цифровая Грамотность Молодежи: Анализ Отдельных Элементов”. Теория и практика общественного развития, 2022, (1(167)), стр.83-86.

**10.** Кожухова Н.В. “Компетенции «будущего» в условиях цифровой экономики”. Экономика, предпринимательство и право. 2021, (7), стр.1875-1892.

**11.** Константинова Д.С. “Цифровые компетенции как основа трансформации профессионального образования”. Экономика труда. 2020, (11), стр.1055-1072.

**12.** Кравченко Л.Н. “Цифровая грамотность населения–необходимое условие развития цифровой экономики”. Белгородский государственный технологический университет им Шухова. 2021, стр.1-8.

**13.** Солдатова Г.У. “Цифровая компетентность российских педагогов”. Психологическая наука и образование. 2015, 20(4), стр.5-18.

**14.** Спивак В.А. “Универсальная компетенция системное и критическое мышление специалиста и лидера”. Лидерство и менеджмент, 2021, 8(1), стр.53-68.

**15.** Шариков А.В. “Очетырехкомпонентной модели цифровой грамотности”. Журнал исследований социальной политики, 2016, 1(14), стр.87-98.

**16.** Шпаченко И.А. “Управление приватностью как компетенция цифровой грамотности”. Сахалинское образование XXI век. 2021, (1), стр.26–32.

**17.** https://www.mckinsey.com/capabilities/mckinsey-digital/%20our-insights/digital-globalization-the-new-era-of-global-flows

**18.** https://www3.weforum.org/docs/WEF_Future_of_Jobs_2020.pdf

**19.** https://www3.weforum.org/docs/WEF_Future_of_Jobs.pdf

**A.A.Poladova**

*master student, Azerbaijan University of Architecture and Construction*

## The role of digital and vocational skills in the economy

**Abstract**

*This article examines the nature of digital literacy as well as job skills and their role in the current trend in the overall economy. Based on the conditions for the development of the digital economy, in the current situation, society and companies are gradually mastering information and communication technologies (ICT), which contribute to increasing production activity. Corresponding progress in digital products and services helps to apply new technologies in various areas of life. Digital technologies are already becoming more and more widespread both in production and even in sectors of the economy that have traditionally had nothing to do with digitalization.*

***Key words:*** *professional skills; digital literacy; digital economy.*

**А.А.Поладова**

*магистрант, Азербайджанский Университет Архитектуры и Строительства*

## Роль цифровых навыков и профессиональных навыков в экономике

**Резюме**

*В этой статье рассматривается природа цифровой грамотности, а также профессиональных навыков, а также их роль в текущей тенденции в экономике в целом. Исходя из условий развития цифровой экономики, в сложившейся ситуации общество и компании постепенно осваивают информационно-коммуникационные технологии (ИКТ), способствующие повышению производственной активности. Соответствующий прогресс в области цифровых продуктов и услуг помогает применять новые технологии в различных сферах жизни. Цифровые технологии уже получают все большее распространение как на производстве, так и даже в отраслях экономики, которые традиционно не имели к цифровизации никакого отношения.*

***Ключевые слова:*** *профессиональные навыки; цифровая грамотность; цифровая экономика.*